# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində şairlə görüş



Noyabrın 16-da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində görkəmli şair Musa Yaqubla "Payız ətirli poeziya" adlı yaradıcılıq görüşü keçirilib. Qonağı əvvəlcə universitetin prorektoru, professor Gülşən Əliyeva salamlayaraq onun universitetə təşrifindən böyük məmnunluq hissi duyduğunu, şair və yazıçılarla tələbələrin görüşünün xüsusi əhəmiyyətə malik olduğunu qeyd edib. Professor Nizaməddin Şəmsizadə şairin kövrək poeziyası haqqında danışarkən vurğulayıb ki, bu gün bizimlə görüşə gələn Musa Yaqub əbədi şöhrət sahibidir. O, əbədi şöhrəti əldə etmək üçün böyük bir ömür sərf edib. Onun yaradıcılığında poeziya ilə təbiət bir-birinə qovuşur.

Universitetin qiraət ustalarının - dosent Ağalar Bayramov və dosent Nadir Hüseynovun ifasında Musa Yaqubun poeziya nümunələri dinlənilib. ADMİU-nun musiqi sənəti fakültəsinin tələbələrinin ifasında səslənən xalq mahnıları, muğamlar görüşə xüsusi ahəng qatıb.

Şairlə tələbələr arasında maraqlı diskussiya qurulub. Şair hər tələbənin sualına ətraflı cavab verərək şeirlərini də səsləndirib. Tələbələr belə görüşlərin onlar üçün böyük praktik əhəmiyyət kəsb etdiyini və bundan çox məmnun olduqlarını dilə gətirərək, belə şəraitin onlar üçün yaradılmasında əməyi olan şəxslərə minnətdarlıq hisslərini bildiriblər.

Musa Yaqub "Dövrün dəyirmanı" adlı kitabını oxuculara təqdim edib. Tədbir şairin ifasında "Çıxım gedim" adlı yeni şeiri ilə yekunlaşıb.

**Mətbuat xidməti**